# ŞƏHZADƏ BƏYAZİDİN ŞAH TƏHMASİBƏ SIĞINMASININ SƏFƏVİ OSMANLI ƏLAQƏLƏRİNƏ TƏSİRİ

https://doi.org/10.30546/3006-0346.2025.3.87.575

**FƏRHAD RÜSTƏMZADƏ**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya institutunun doktorantı*
*E-mail: ferhadrustemzade@gmail.com*

### Şəhzadə Bəyazid hadisəsinə qədər Şah Təhmasib dönəmi Səfəvi Osmanlı münasibətləri

Şah Təhmasiblə Sultan Süleyman arasında ilk əlaqələr elə Şah Təhmasib taxta çıxdıqdan bir il sonra, yəni 1525-ci ildə Sultan Süleymanın Təhmasibə göndərdiyi təhdid dolu məktubla başlamışdır. Bu məktubda sultan niyə Osmanlıya bağlılılığını bildirmədiyini şahdan soruşmuş və yaxın zamanda orduları ilə birlikdə səfərə çıxacaqlarını bildirdi. Atası Sultan Səlimin İsmayılı məğlub etməsini xatırladan Qanuni eyni taleyin Təhmasibi də gözlədiyini bildirmişdir. Bu məktubda sultan həmçinin: “ Dünyanın ən mükəmməl və çətin qalalarından olan Rodos və Belqrad qalalarının tutulması sənin dövlətinin varlığı səbəbi ilə gecikdi. Bu səbəblə atımın üzəngilərini sənin üstünə çevirdim. Ərən sultanların öz düşmənlərinə hücum etməzdən əvvəl bunu elan etməsi adət olduğundan sənə bildirirəm: Babalarının dərviş qiyafələrini geyin, tacını başından çıxar, dərvişlərinlə bərabər ibadətxanana çəkil. Çünki, qarışqa kimi torpaq altında gizlənsən də, quş kimi göylərdə uçsan da axtarıb tapacağam səni. Ərsənsə vaxtında hazır ol.”

Bu məktubdan da açıqca görünürdü ki, Sultan Süleyman Şah Təhmasib hakimiyyətə çıxdığı ilk illərdən onun üzərinə yürüş hazırlamış, lakin 1526-cı ildə sultanın fikrini dəyişdirərək, qərbə hücum etməsi səbəbi ilə bu yürüş baş tutmamışdır.

Osmanlı qoşunlarının qərbdə səfərdə olmasından istifadə edən, Anadoluda yaşayan şiə əhali də burada üsyanlara qalxmışdır. Türk tarixçilərin əsərlərində bu üsyanların əsas səbəbinin Səfəvilərin xalqı ayaqlanmağa təhrik etməsi olduğu bildirilir. Bu məsələdə doğruluq payı olsa da osmanlı vergi məmurlarının haqsızlıqları, vergilərin həddən artıq çox olması da bu üsyanlara səbəbdir. Bu üsyanlara Bozok bölgəsində Kadri Hoca Baba və Baba Zünnun üsyanları, Vəli Xəlifə, Yekçe bəy, Qələndər bəy kimi üsyanları misal göstərə bilərik

Bütün bunların ardınca 1534, 1535, 1548 və 1554 cü illərdə Osmanlı orduları Səfəvilər üzərinə yürüş etmiş və bu müharibə Amasiya sülhü ilə nəticələnmişdir. Amasiya sülhü ilə Osmanlılar bütünlüklə İraqı, Anadolunu və Qərbi Gürcüstanı ələ keçirdi. Səfəvilərin əlində isə Şərqi Gürcüstan torpaqları qaldı [6, s.140, 7, s.200].

### Şəhzadə Bəyazidin Səfəvi imperiyasına sığınması

Qanuni Sultan Süleymanın 2 oğlu uşaq ikən həyatını itirmiş, digər 5 oğlundan şəhzadə Mehmed 1543-cü ildə ölmüş Şəhzadə Mustafa 1553-cü ildə edam edilmiş, daha dəqiq desək boğdurulmuşdur. Şəhzadə Cahangir isə qardaşı Mustafanın öldürülməsinə kədərlənərək ölmüşdür.

Beləliklə, Sultan Süleymanın ölümünə yaxın sadəcə iki oğlu həyatda qalmışdı: Şəhzadə Səlim və Şəhzadə Bəyazid. Qanuni Sultan Süleyman bu iki oğlu arasında seçim etmiş və Şəhzadə Səlimin taxta çıxmasını daha uyğun görmüşdür. Şəhzadə Bəyazid isə Səlimin taxta keçib onu öldürəcəyi günü gözləməkdənsə taxt üçün mübarizəyə qalxmağa qərar vermişdir. Bəyazidin ən böyük dəstəkçisi anası Hürrəm sultan və Rüstəm paşa idi.

Şəhzadələr arasındakı mübarizə barədə ən geniş məlumatı biz İstanbulda olan Avstriya elçisi Busbecqin “Türk məktubları” adlı qeydlərində tapa bilərik. Bu qeydlərə görə, Şəhzadə Bəyazid qardaşı Mustafanın ölmədiyi iddiasını yaymağa başladı. O, bu iddianı əsasən Mustafanın ən çox sevildiyi- Timarlı sipahilərin çox sayda yerləşdirildiyi Trakya, Tuna, Moldaviya və Eflak bölgələrində yaymağa başladı. Hətta, qardaşı Mustafaya bənzəyən bir sadiq əsgər tapmiş və bu bölgəyə üsyan başlatmaq üçün göndərmişdir. Lakin, Sultan Süleyman bu üsyandan tez xəbər tutmuş və tez bir şəkildə “Düzməcə Mustafanı” İstanbula gətizdirib sorğulatmışdır. Bu hadisənin arxasında oğlu Bəyazidin olduğunu öyrənən Sultan çox qəzəblənmiş, lakin Hürrəm sultanın xahişlərindən sonra oğlu Bəyazidi əfv etmişdir. Amma bu hadisə sultanın kiçik oğluna olan inamını daha da azaltmış Səlimin taxta gedən yolunu açmışdır [8, s.114].

Sultan hər vəchlə iki qardaş arasındakı münaqişəni həll etmək üçün əlindən gələni edirdi. 1558-ci ildə Sultan Süleyman şəhzadə Səlimin Manisa sancağının idarəsindən alınıb Konya sancağına verildi. Şəhzadə Bəyazid isə Kütahya sancağından alınaraq Amasiyaya göndərildi. Lakin, Bəyazid bu qərardan

çox narahat olmuş, sultana dəfələrlə onu Amasiya yerinə Ankaraya göndərməsini bildirsə də, sultan buna razı olmamışdı. Səylərinin əbəs yerə olduğunu anlayan şəhzadə 21 dekabr 1558-ci ildə Amasiyaya getməyə məcbur oldu.

Lakin, Bəyazid atasının Səlimə olan dəstəyini qəbul edə bilmir və ona qarşı durmadan öz gücünü artırmağa çalışırdı. Təbii ki, onun qarşısında sadəcə Səlim deyil, Sultan Süleyman və Lələ Mustafa paşa-da yer alırdı. Beləki, Sultan Süleyman Səlimə necə ordu yarada biləcəyini belə izah edirdi.

Bütün bu hazırlıqlar iki qardaşın 29 may 1559-cu ildə Konya ovasında qarşılaşmasına gətirib çıxardı. “Şəhzadələr müharibəsi” adlanan bu savaşda qələbə qazanan Səlim bu döyüşlə Osmanlının gələcəyini təyin etmişdi. Bu döyüşdən məğlub ayrılan şəhzadə Bəyazid sürətlə valisi olduğu Amasiyaya doğru geri çəkildi. Buradan atası Qanuni Süleymana bağışlanması üçün məktublar yazsa da, bu istəyində müvəffəq ola bilmədi. Bəzi məlumatlara görə onun bu məktubları yolda şəhzadə Səlimin əlinə keçmiş və heç atasına belə çata bilməmişdi.

Sultan Süleyman Bəyazid “fitnəsini” ortadan qaldırmaq üçün Sokollu Mehmed paşanı, Rumeli bəylərbəyi Kızıl Mustafa paşanı yeniçərilər ilə birlikdə şəhzadə Səlimin yanına göndərmişdi. Birləşmiş qoşunlar Bəyazidin üzərinə- Amasiyaya doğru hərəkətə başladılar. Bundan xəbər tutan Bəyazid övladlarını da götürüb 1559-cu il iyun ayının sonlarında Amasiyadan çıxaraq şərqə- Səfəvi sərhədlərinə doğru hərəkətə başladı. Bu məlumat həm Səlimi, həm də bu hadisələri sarayında diqqətlə izləyən sultanı çox qorxutdu. Şəhzadə Səlim bu səbəblə Sokollu Mehmet paşanın sürətlə Ərzuruma gedib Bəyazidin yolunu kəsməsini əmr etdi [ 4, s.527]. Lakin sürətlə hərəkət edən Bəyazidə yalnız Arz çayı yaxınlığındakı Qaradərə bölgəsində yetişə bildilər. Lakin burada iki ordu arasında döyüş olub olmadığı ilə bağlı əlimizdə dəqiq məlumat təəssüf ki yoxdur. Belə ki, Şerafettin Turan iki ordunun qarşılaşmadığını, Münəccimbaşı isə Ərzurum bəylərbəyinin şəhzadə Bəyazidin ordularının məğlubiyyətə uğratdığını hətta ordudakı önəmli şəxsləri əsir aldığını da qeyd etmişdir. Ancaq dəqiq olan bir məlumat var ki, Bəyazid Səfəvi sərhədlərinə gəlmiş və İrəvan valisi Nizaməddin Şahqulu sultana sığınma üçün icazə verməsini xahiş edən bir məktub göndərmişdir (78). Bu barədə Səfəvi şahına məktub yazan İrəvan hakimi şəhzadənin bu məktubuna çox şübhəli yanaşırdı. Bu məktubu alan Şah Təhmasib çox sevinmiş və içində intiqam hissləri yüksəlməyə başlamışdır. Belə ki, 1547-ci ildə Şah Təhmasibin qardaşı Əlqas Mirzə qardaşına qarşı üsyan etmiş, bu üsyan yatırılsa da, Əlqas Mirzə Osmanlılara sığınmış və Sultan Süleyman 1548-ci ildəki səfərində Əlqas Mirzədən istifadə etmiş, hətta onu qısa müddətlikdə olsa Azərbaycanın başınada vali təyin etmişdi. Bu hadisədən sonra Şəhzadə Bəyazidin Səfəvilərə sığınması Təhmasib üçün əldən verilməyəcək bir fürsət idi. Təhmasib cavab məktubu yazaraq Bəyazidin yüksək səviyyədə qarşılanmasını tələb etmişdi. Və onun ilkin olaraq Naxçıvana gətirilməsi, burada ən bahalı hədiyyələr təqdim edilməsini əmr etmişdi. Burada 5 gün qaldıqdan sonra Təbrizə, ardınca isə Səfəvilərin paytaxtı Qəzvinə gətiriləcəkdi.[ 2, s.194]

23 oktyabr 1559-cu ildə Şəhzadə Bəyazid Qəzvinə yetişmiş və burada Şah Təhmasib tərəfindən qarşılanmışdı. Nəql edilən rəvayətlərə görə, Təhmasiblə Bəyazid ata-oğul kimi qucaqlaşmışdılar. Qardaşının Səfəvi sarayına sığındığını öyrənən Səlim həm atasına bunu bildirmiş, həm də Sultan Süleymanın daha əvvəldən bu hadisənin baş verəcəyini anlayaraq Təhmasibə yazdığı məktubunu özünün məktubu ilə birlikdə Qəzvinə doğru yola salmışdır. Məktubda O, *“..binaen ‘al a zalike, eger Hüdavend-gar-ı keramet-kar hazretleriyle ma-beyniñizde bünyan-ı mersus gibi üstüvar olan kaime-i sulh ü salah ki, müte zammin-i fevz ü necahdur, anı ri ‘ayet idüp, muhibbiñiz serhadde......cem’iyyet müterakkub-ı asar-ı lütf ve mürüvvet iken, siparisname-i hümayun-ı Padisahi, zat-ı ferhunde-sıatuñızuñ nažar-kahı olup, mes’ulleri hemdem kabul vaki’ olup, rıza haır-ı ‘aırları mukteasınca, ber-vech-i istihcal bu canibe irsal buyurulursa, insa’a’llahü’l-Melikü’l-Mütezal, “kema tedinü tüdanü……….”* Hadisi sermaye-i ahval ve piraye-i a’mal ve amal olup,ol silsile-i devlet ve ikbal ile mühalesat ve müsadakatımız la yezulü ve la yüzalü oldugından kayri,beyne’l-canibeyn ahali-i re’aya ki, vedayi’-i dalik-i berayadur, yümn-i himmet bihemtañız ile asude-i hal ve fariku’l-bal olup, fi’l-kudüvvi ve’l-asal medh u sena ve hayr-du’añıza iştiğal itmeleri mukarrerdür.”

Qısaca Şəhzadə Səlim diplomatik bir dillə hər iki dövlət arasında bir problemin baş verməməsi üçün tək yolun Şahın Bəyazidi təslim etməsi olduğunu bildirirdi. Bundan əlavə, Sultan Süleyman Hələbdə Osmanlı qüvvələri yerləşdirmiş və şahın Bəyazidlə birlikdə ani hücum etməsini də mümkün hesab etmişdir [5, s.452].

Qəzvində Səadətabad sarayında Şah Təhmasib Bəyazidin şərəfinə ziyafət vermiş və Osmanlı sultanı Süleymanla Səlimin məktublarını ona oxumuş və ondan fikirlərini soruşmuşdur. Şəhzadə isə bağışlanmadan təslim edilərsə, böyük ehtimalla edam ediləcəyini bildirdi və şahdan sultana oğlunu bağışlaması üçün bir məktub yazmasını xahiş etdi.

Bu məktubu alan Sultan Süleyman 27 aprel 1560-cı ildə cavab məktubu yazaraq, Konya savaşından sonra baş verən hadisələri anlatmış və şəhzadənin üsyanı səbəbi ilə çox sayda insanın ölməsinin Allah qatında böyük günah sayıldığını, bu səbəblə də öldürülməli olduğunu bildirmişdir. Lakin, şahın şəfaəti ilə onun bəzi şərtləri yerinə yetirilərsə bağışlanacağını bildirdi. Bu şərtlərdən biri Bəyazidin yanındakı Ferruh, Abdülganioglu, Dursun və Aksak Seyfeddinin öldürülməsi, ordunun geridə qalanlarını İranda əsir saxlamalı olduğunu, şəhzadənin isə oğulları ilə birlikdə Osmanlı sərhəddinə gətirib təslim etməli olduğu idi.

Bir də məsələnin Səfəvi və şah Təhmasib aspekti mövcuddur. Şah ilk olaraq, Bəyazidin yanında gələn və sayıları təxminən 12.000 nəfərə çatan ordunu müxtəlif bəhanələrlə hissələrə ayıraraq Qəzvin ətrafı yaylalarda yerləşdirdi. Buna səbəb isə Şahın Bəyazidə heç güvənməməsi idi. Dəqiq məlumat olmasa da, şahın Bəyazidin yaxın adamlarından olan Quduz Fərhadın şaha qarşı sui-qəsd təşkil edib, əllərindəki ordu ilə rahatlıqla Səfəvilər dövlətinin ərazisini ələ keçirməsi fikrini şəhzadəyə bildirməsi ilə bağlı məlumat əldə etməsi və ya Şəhzadə Bəyazidin Konya döyüşündən əvvəl yazdığı: “Əgər padşah olsam, Təhmasibin başını bir qılınc zərbəsi ilə gövdəsindən ayıracağam” tipli şeirlərinin Təhmasibin əlinə keçməsi ehtimalı idi. Bütün bunları nəzərə alan şah, Bəyazidi 14 fevral 1560-cı ildə oğlanları ilə birlikdə zindana atdırdı. Bu xəbər Qanuni Sultan Süleyman və Şəhzadə Səlimi sevindirmiş və artıq Şah Təhmasibin Bəyazidi Osmanlıya qarşı istifadə etməyəcəyini düşündürmüşdür. Bu hadisədən sonra Şah Təhmasib həm şəhzadəyə, həm də sultana məktublar göndərmişdir. Bu məktubların hər ikisində fərqli üslub istifadə edən Təhmasib, sultana göndərdiyi məktubda Osmanlı sultanının Bəyazidin taleyi ilə bağlı qərarını gözlədiyi və artıq əfv edilməsi üçün xahiş etməyəcəyini vurğulamış, Şəhzadə Səlimə göndərdiyi məktubda isə bəlkə də gələcək sultanın könlünü almaq üçün Bəyazidin öldürülməsinin daha uyğun olacağını qeyd etmişdir [5, s.455].

Qanuni 1561-ci ildə həm oğlunun vəziyyəti ilə maraqlanmaq, əgər mümkün olarsa onu Təhmasibdən təslim almaq üçün, həmdə şaha hədiyyələr təqdim etmək üçün bir nümayəndə heyətini Qəzvinə doğru yola saldı. Bu nümayəndə heyəti, 8 aprel 1561-ci ildə Qəzvinə çatmış və şaha hədiyyələri təqdim etmiş və sultanın məktubunu şaha oxumuşdur. Lakin, Şah Təhmasib Bəyazidə verdiyi sözlə əlaqədar olaraq onu yalnız şəhzadə Səlimin nümayəndə heyətinə verə biləcəyini bildirmişdir. Hətta, Türk tarixçi Şərafəddin Turan bu görüş zamanı Şah Təhmasibin Osmanlı sultanına yazdığı məktubdan bəhs etmiş və bu məktubda Təhmasibin Süleymandan “həddi aşan” ehsanlar istədiyi bildirilir. Belə ki, guya Şah Təhmasib Səfəvi ölkəsindən 2 nəfərə məsum imamların şəhidliklərinin idarəsinin verilməsini, Şahın övladlarına Osmanlı ərazisində valiliklər verilməsini, hətta Bağdadın Səfəvilərə buraxılmasını qeyd etmişdir. Lakin, tarixçi burada heç də obyektiv qaynaqlara istinad etməmiş, Təhmasibə aid etdiyi məktubu təqdim etməkdən belə aciz qalmışdır. Bu görüşdə elçilər Təhmasibə, əgər Bəyazidi onlara verməsə Sultan Süleymanın Səfəvi ərazilərinə hücüm etməsi ehtimalını bildirmiş, bunun üzərinə şah Bəyazidi sərbəst buraxacağını deyərək onların bu təhdidinə qarşılıq vermişdir.

Bu hadisələrdən sonra Qanuni və Sultan Səlim məktublarının üslubunu daha da yumşaltmağa məcbur oldular. Belə ki, Osmanlı qaynaqlarının iddialarına görə Sultan Süleyman Səfəvi torpaqlarından Osmanlı ərazilərinə icazəsiz daxil olanların geriyə qaytarılması üçün şəhzadə Səlimdən sərhəddəki əmirlərə xətti-şərif yazmasını tələb edirdi. Bundan əlavə, Van bəylərbəyi Lələ Mustafa paşanı da tutduğu vəzifədən kənarlaşdıran Qanuni Sultan Süleyman Şah Təhmasibin “könlünü xoş tutmağa” çalışdığı görülür. Həmçinin, imamlarının məzarlarına xidmət etmək və Səfəvi ərazilərindən gələn nəzirlərin buraya təhlükəsiz çatdırılmasını da təmin etmək üçün Səfəvi sarayının təyin etdiyi iki şəxsin Kərbəlaya gəlməsinə icazə verildiyi də bildirilir.

1562-ci ilin ortalarında Osmanlı sultanı, Bəyazidin təslim alınması üçün yeni təyin olunan Van bəylərbəyi Xosrov paşanın başçılığı ilə 200 nəfərlik elçi heyətini Səfəvi sarayına göndərməyi qərarlaşdırdı. Bu heyət 16 iyulda Qəzvinə çataraq burada Şəh Təhmasib ilə görüşdü. Van bəylərbəyi Xosrov paşa şəhzadənin onlara təslim edilməsinin qarşılığında Sultanın və şəhzadə Səlimin qiymətli hədiyyələr və

ehsanlar təqdim edəcəyini bir daha vurğuladı. Şah Təhmasib bu diplomatik gərginliyin daha da uzadılmasının mənasız olduğunu görərək 23 iyul 1562-ci ildə Bəyazidi elçi heyətinin qarşısına çıxardı. Elçi heyətindən Sinan ağanın təqdim edilən bu şəxsin Bəyazid olduğunu təsdiq etməsindən sonra, şəhzadə çavuş başı Əli ağaya təslim edildi. Osmanlı qaynaqlarında bildirildiyinə görə Bəyazid və 5 oğlu- Orxan, Əhməd, Abdullah, Mahmud və 3 yaşındakı oğlu Osman da elə həmin gün Qəzvin şəhərində boğularaq edam edildilər. Bu hadisə Səfəvi xalqı arasında bu nümayəndə heyətinə qarşı çox böyük nifrət oyandırdı, hətta əhali Osmanlı heyətini Səfəvi torpaqlarını tərk edənədək yol boyu daş-qalaq etdilər. Osmanlı dəfn adətinə görə vəfat edən şəhzadələr Bursada dəfn edilsə də, Bəyazid və övladları Sivas qalasından kənarda bir yerdə dəfn edildilər. Bu hadisədən sonra Şah Təhmasib Səlimə məktub yazaraq bu qətliamı törədənlərin tezliklə cəzalandırılmalı olduğunu bildirdi. Şəhzadə Səlim isə narahat olmamasını bunu edənlərin tezliklə etdiklərinin qarşılığını alacağını qeyd etdi.

Şahzadə Bəyazidin Səfəvi sarayına sığınması XVI əsr Səfəvi-Osmanlı münasibətlərində mühüm diplomatik dönüm nöqtələrindən biri olmuşdur. Bu hadisə, Şah Təhmasibin xarici siyasətində həm dini-ideoloji amilləri, həm də siyasi realizmi necə ustalıqla uzlaşdırdığını aydın şəkildə göstərir. O, ilkin mərhələdə Bəyazidi qəbul etməklə sünni Osmanlılara qarşı şiə legitimliyini gücləndirsə də, daha sonra onun təslim edilməsinə razılıq verməklə regional sülh və dövlətin uzunmüddətli sabitliyini prioritet kimi qiymətləndirmişdir. Bu qərar, Şah Təhmasibin siyasi uzaqgörənliyini və rəqiblə qarşıdurmadan çox, strateji balans yaratmaq meylini əks etdirir. Bəyazid məsələsi həmçinin sübut edir ki, Səfəvi dövləti yalnız dini motivasiyalarla deyil, eyni zamanda geosiyasi reallıqları nəzərə alan bir diplomatiya ilə idarə olunurdu. Beləliklə, bu epizod Təhmasibin dövlətçilik portretində əhəmiyyətli yer tutur və onun regional siyasətdəki çevik mövqeyini təsdiqləyir [1. s.125].

Şahzadə Bəyazidin Səfəvi sarayına sığınması XVI əsrdə Səfəvi-Osmanlı münasibətlərinin taleyini müəyyən edən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Bu epizod təkcə iki imperiya arasında siyasi münasibətlərin deyil, həm də o dövrün diplomatik mədəniyyətinin və dövlət maraqlarının qarşılıqlı təsirinin bariz nümunəsidir. Şah Təhmasibin bu məsələyə münasibəti, onun idarəçilik fəlsəfəsində dini-ideoloji meyillərlə siyasi praqmatizmin necə vəhdət təşkil etdiyini açıq şəkildə nümayiş etdirir.

**Nəticə:**

Əvvəlcə Bəyazidi qəbul etməklə Osmanlı hakimiyyətinə qarşı mənəvi və ideoloji üstünlük qazanan Şah Təhmasib, sonradan onun təslimi ilə imperiyalar arasında hərbi qarşıdurmanın qarşısını almağa, diplomatik balansı qorumağa və dövlətinin uzunmüddətli sabitliyini təmin etməyə nail olmuşdur. Bu qərar, Təhmasibin siyasi uzaqgörənliyini, eləcə də onun şəxsi və dövlət maraqları arasında rasional seçim edə bilmək bacarığını göstərir. Şahzadə Bəyazid məsələsi göstərir ki, Səfəvi dövləti sırf dini motivasiyalı siyasət yürütməklə kifayətlənmir, eyni zamanda geosiyasi reallıqları da nəzərə alaraq çevik və məqsədyönlü diplomatik strategiya həyata keçirirdi. Beləliklə, bu hadisə Şah Təhmasibin siyasi portretində mühüm yer tutur.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Ertaylan, İ. H.- Şah Tahmasb ve Osmanlı-Safevi Münasebetleri. Türk Tarih Kurumu Yayınları, 1983, s365*

*2. Savory, R. - Iran under the Safavids. Cambridge University Press,1980, s404*

*3. Imber, C. -The Ottoman Empire, 1300–1650: The Structure of Power. Palgrave Macmillan 2002, s352*

*4. Həsən Bəy Rumlu- Əhsənüt-Təvarix (Tarixlərin ən Yaxşısı), tər. Oqtay Əfəndiyev, Namiq Musalı, 2007, Kastamonu s661*

*5. İsgəndər bəy Münşi- Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Bakı, 2009, «Təhsil», s792*

*6. Hüseynov, R. -Azərbaycanın Səfəvi dövrü tarixi. Bakı: Elm və Təhsil 1994, s348*

*7. Oqtay Əfəndiyev – Səfəvilər dövləti, Şərq-Qərb nəşriyyatı, 2007, s353*

*8. Busbecq, O. – Türk Məktubları (Latınca: Legationis Turcicae Epistolae IV) s240*


**XÜLASƏ**


Bu tədqiqat XVI əsrdə Səfəvi-Osmanlı münasibətlərində əhəmiyyətli rol oynamış Şəhzadə Bəyazidin Səfəvi sarayına sığınmasının siyasi və diplomatik nəticələrini araşdırır. Şah Təhmasibin

bu hadisəyə verdiyi cavab, onun hökumətçilik fəlsəfəsində ideologiya ilə siyasi realizm arasında tarazlıq yaratdığını nümayiş etdirir. Bəyazidin qəbul edilməsi Səfəvilərin Osmanlılarla münasibətində müvəqqəti gərginliyə səbəb olmuş, lakin onun edamına razılıq verilməsi siyasi uzaqgörənliyin göstəricisi kimi qiymətləndirilə bilər. Bu qərar Şah Təhmasibin yalnız dini lider deyil, həm də praqmatik dövlət adamı olduğunu təsdiqləyir. Araşdırmada Təhmasibin daxili sabitiyi qorumaq və Osmanlı ilə münasibətləri normallaşdırmaq üçün atdığı addımlar təhlil edilir. Nəticə etibarilə, Şah Təhmasibin bu məsələdə tutduğu mövqe onun siyasi çevikliyini və Səfəvi dövlətinin regional siyasətdə yürütdüyü çoxistiqamətli diplomatiyanı ortaya qoyur.

**Açar sözlər:** *Səfəvi imperiyası, Osmanlı imperiyası, Şah Təhmasib, Amasiya müqaviləsi, Möhtəşəm Süleyman.*

## SUMMARY

This study investigates the political and diplomatic ramifications of Prince Bayezid's asylum at the Safavid court, a pivotal episode in the context of 16th-century Safavid-Ottoman relations. Shah Tahmasp's response to this event reflects a calculated balance between ideological commitment and political pragmatism within his approach to governance. While the reception of Bayezid temporarily strained ties with the Ottoman Empire, the eventual acquiescence to his execution can be interpreted as an act of strategic foresight. This decision underscores Shah Tahmasp's dual role as both a religious authority and a pragmatic statesman. The analysis further examines the measures taken by Tahmasp to preserve internal stability and to recalibrate diplomatic relations with the Ottoman state. Ultimately, his handling of the situation illustrates his political adaptability and reveals the multidirectional diplomacy employed by the Safavid state in navigating the complex regional dynamics of the period.

**Key words:** *Safavi Empire, Ottoman Empire, Shah Tahmasp, The Treaty of Amasya, Magnificient Suleiman.*

## РЕЗЮМЕ

Данное исследование анализирует политические и дипломатические последствия предоставления убежища принцу Баязиду при дворе Сефевидов — события, сыгравшего ключевую роль в османо-сефевидских отношениях XVI века. Реакция шаха Тахмаспа на этот инцидент демонстрирует его стремление к выстраиванию баланса между идеологической приверженностью и политическим прагматизмом в управлении государством. Хотя принятие Баязида привело к временному обострению отношений с Османской империей, последующее согласие на его казнь может быть интерпретировано как проявление стратегического политического предвидения. Это решение подчеркивает двойственную природу власти шаха Тахмаспа — как религиозного лидера и как прагматичного государственного деятеля. В исследовании также рассматриваются меры, предпринятые шахом с целью сохранения внутренней стабильности и нормализации дипломатических связей с Османской Портой. В конечном итоге, позиция шаха в данном вопросе свидетельствует о его политической гибкости и раскрывает характер многовекторной дипломатии, которую проводило Сефевидское государство в условиях сложной региональной геополитики.

*Ключевые слова: Сефевидская империя, Османская империя, шах Тахмасп I, Амасийский договор, Сулейман Великолепный.*